

# İran torpağının səkkiz il qəhrəmancasına müdafiəsi barədə hekayələr kitabı



İran İslam Respublikasının Naxçıvandakı
Baş Konsulluğunun Mədəniyyət Attaşeliyi

بسم الله الرحمن الرحيم




**Ali Dini Rəhbəri Həzrət Ayətullah Seyid Əli Xameneinin:**

"Bu müharibə müdafiə savaşı idi. Müdafiə savaşı hücum döyüşündən fərqlidir. Müdafiə savaşı, insanların sadiq olduqları ideallara bağlılığının ən önəmli təzahürüdür. "

**Kitabın adı: İran torpağının səkkiz il qəhrəmancasına müdafiəsi barədə hekayələr kitabı**

**Tərtibatçı: Əbülfəzl Rəbii**

**Çap: 2021**

**E_BOOK**

**Dizayner: Əbülfəzl Rəbii**

# Mündəricat

Ön söz ____ 6
Giriş ____ 8
Təcavüzə qarşı ittifaq ____ 9
Müharibənin başlanma səbəbləri ____ 12
Müharibənin başlanma tarixi ____ 13
İraq ordusunun müharibənin əvvəlindəki fəaliyyətləri ____ 15
Hücumun başlanması ____ 16
Müqavimət ____ 18
Özünəinamın qazanılması ____ 21
Daxildəki düşmənlərin dəstəklənməsi ____ 27
Təcavüzkarın təqibi ____ 29
Siyasi aksiyaların başlanması ____ 30
Vəziyyətin İranın xeyrinə dəyişməsi ____ 32
İraqın Mobil Müdafiə Strategiyası ____ 36
Həlledici il ____ 36
Müharibənin sonu ____ 40

**Müharibənin sonunda İraqın hücumu____________________45**

**İraq yenidən sərhəddə məğlub oldu ______________________46**

**Milli azlıqlar və xalqların Müqəddəs Müdafiədə olması_______50**

**Vətənin müdafiəsinin təşkili ______________________________55**

**Müqəddəs Müdafiə və Dini Azlıqlar______________________57**

**İran İslam Respublikasının Ali Dini Rəhbəri________________59**

**Ayətullah Seyid Əli Xameneinin baxımından Müqəddəs Müdafiədəki Nailiyyətlər__________________________________61**

**Nəticə_________________________________________________76**

# İran torpağının səkkiz il qəhrəmancasına müdafiəsi barədə hekayələr kitabı

**Allahın adı ilə**

## Ön söz

1979 -cu ildə İran İslam İnqilabının qələbəsi ilə ölkənin hələ də işlərin təşkili və yeni bir sistem qurmaqla məşğul olduğu, bir çox problemlərlə üzləşdiyi bir vaxtda İraq rejimi tərəfindən dağıdıcı bir müharibə başladılmaqla, İranın əhəmiyyətli bölgələri İraq ordusunun nəzarətinə keçdi.

Bu, əvvəldən aydın idi ki, İraq İranla müharibəyə təkbaşına başlayacaq. Belə ki, İraq ABŞ və Avropa da daxil olmaqla Qərb ölkələrinin maliyyə, silah və humanitar dəstəyi ilə yeni formalaşan İran İslam İnqilabını hədəf almışdı.

İran xalqı öz torpaqlarının işğalına qarşı bütöv şəkildə ayağa qalxdı və heç kimin onlara yardım etməyəcəyini anlayaraq öz gəncləri və döyüşçü millətinin köməyi ilə ən az imkan və

təchizat ilə torpaqlarının müdafiəsinə tələsdi və nəinki işğal olunmuş torpaqlarını azad etdi, həm də bu hərəkət düşmən üçün çox baha başa gəldi.

Bu kitabda Azərbaycan Respublikasının, xüsusən də Naxçıvan Muxtar Respublikasının əziz xalqına bu müharibənin reallığı barədə məlumat verilməklə və böyük İran xalqının qəhrəmanlıq dastandan bir parça təsvir olunmaqla, onun tanıdılmasına çalışılmışdır.

Bu səbəbdən, İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun hörmətli mədəniyyət attaşesi cənab Əbülfəzl Rəbiiyə təşəkkür edərək, sizi bu kitabın mütaliəsinə dəvət edir və öz növbəmdə ümid edirəm ki, İran xalqının qəhrəmanlıqlarından bir hissəni sizin üçün təqdim edəcəyik!

**Ehtiramla: Seyid Əhməd Hüseyni - İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulu**

## Giriş

1979-cu ildə İslam İnqilabının qələbəsindən iki ildən az bir müddət keçdikdən sonra, İraqdakı BƏƏS rejimi ABŞ, Qərb və bölgədəki bəzi ərəb ölkələri də daxil olmaqla bir qrup düşmənin köməkliyi ilə, İrana qarşı geniş miqyaslı müharibə başlatdı. Nəticədə, İraqla həmsərhəd olan mühüm və strateji əhəmiyyətə malik şəhərlər də daxil olmaqla, beş vilayət İraq tərəfindən işğal olundu. Bu təcavüz, ölkədə şahlıq rejiminin devrilməsinin ardınca, İslam İnqilabının yenicə qalib gəldiyi və yeni yaranan İran İslam Respublikasının sabitliyə və təhlükəsizliyə malik olmadığı bir vaxtda baş verdi.

## Təcavüzə qarşı ittifaq

Bu böyük hadisədən sonra, İmam Xomeyninin (r.ə) rəhbərliyi altında ayağa qalxan İran milləti bu təcavüzə qarşı çıxmaq və düşməni qovmaq üçün bütün gücü ilə mübarizəyə başladı.




Ali Rəhbərin polad iradəsi, İran xalqının coşub-daşan fədakarlıq və şəhidlik ruhu ilə birlikdə bir həftə davam edəcəyi

deyilən bu müharibə səkkiz il davam etdi. Bu müharibənin sonunda təkcə İranın işğal edilmiş bütün torpaqları və əraziləri geri alınmadı, əksinə, İranda yaranan və formalaşan müqavimətin özəyi və ölçüləri bütün Asiya bölgəsini əhatə etdi.

O vaxt qərb və şərq dövlətlərinin dəstəyini alan Səddam Hüseyn, 1975 -ci ildə Əlcəzair müqaviləsini cıraraq, televiziya kameraları qarşısında təcavüzkar hücumun əmrini verərək, elan etdi ki, bir həftə sonra Tehranda olacaq.

Təcavüzün ilk günlərində, İraq ordusu heç bir ciddi maneə olmadan Əhvaz və Xürrəmşəhrə doğru irəlilədilər. Lakin tezliklə, İmamın (r.ə) tarixi əmri ilə ordu və xalq qüvvələri heç bir imkanları, texnikası və hətta hərbi təlimləri olmadan, düşmənə müqavimət göstərərək, onu geriyə qovdular.

İslam İnqilabının qələbəsi ilə İran və İraq arasındakı ixtilaflar daha da çoxaldı. Dövrün iki supergücünün nəzarətində

olan bu böhranın bir tərəfində inqilabçı İran dövləti, digər tərəfdə isə, iki fövqəldövlətin olduğu bir böhrana çevrildi. Başqa bir ifadə ilə, İrana qarşı müharibənin təşəbbüskarlarının motivi, həm regional, həm də qlobal dəstəkçiləri idi. İraqın işğalçı BƏƏS rejiminin 1980-ci ilin sentyabr ayının sonlarında İrana hücumu ilə başlatdıqları müharibə 8 il davam etdi.



## Müharibənin başlanma səbəbləri

İslam İnqilabının qələbəsi ilə İran və İraq arasındakı ixtilaflar daha da çoxaldı. Dövrün iki supergücünün nəzarətində olan bu böhranın bir tərəfində inqilabçı İran dövləti, digər tərəfdə isə, iki fövqəldövlətin olduğu bir böhrana çevrildi. Başqa bir ifadə ilə, İrana qarşı müharibənin təşəbbüskarlarının motivi, həm regional, həm də qlobal dəstəkçiləri idi. Şərq və Qərb bloklarına bölünən dünyada əsas məntiq münasibətlərin ikiqütblü nizamlanması olduğundan, hər növ dini və İslami mahiyyətli inqilaba qarşı çıxırdılar.



Nəticədə, İranda İslam İnqilabının zəfəri ilə toxumları səpilən müstəqil bir qütbün doğulmasına icazə vermək istəmirdilər. Digər tərəfdən isə, xalq hakimiyyətinə malik olmayan İsrail və irticaçı ərəb dövlətləri İslam İnqilabının qələbəsindən narahat idilər və bunun bölgə müsəlmanlarına təsirindən qorxurdular.

## Müharibənin başlanma tarixi

İraqın İrana qarşı təcavüzkar hərəkətləri, 1979-cu ildə zəif olsa da, 1980-ci illərin əvvəllərində ABŞ-ın İranla əlaqələrinin kəsilməsi, ABŞ-ın Təbəsə uğursuz hücumu, Ayətullah Məhəmməd Baqir Sədrin həbsi və edamı kimi əhəmiyyətli hadisələrlə gücləndi. Əlbəttə ki, 1980-ci ilin ilk altı ayında İraqın sərhəd pozmaları eyni tendensiyaya malik deyildi. Daha doğrusu, ABŞ-ın İranla əlaqələrinin kəsildiyi andan Noje (Böyük İran Qiyamının Xilası) çevrilişi ərəfəsinə qədər daha da şiddətləndi. 1980 -ci ilin iyulunda, çevrilişin zamanı yaxınlaşdıqca, onunla əlaqəli olaraq İraqın sərhəd əməliyyatlarının intensivliyi də azaldı. Amma çevriliş cəhdi

aşkar olunduqdan sonra, avqust ayından sərhəd pozuntuları yenidən artmağa başladı. İraqın təcavüzkarlığı sentyabr ayında ciddi şəkildə gücləndi və eksponensial bir tendensiyaya çevrildi.

Belə ki, 1980 -ci ilin sentyabrında İraqın İrana qarşı olan soyuq müharibəsi qızğın müharibəyə çevrildi və 7 sentyabr 1980 – ci ildə Xanlili bölgəsi İraq ordusu tərəfindən ələ keçirildi. Bir neçə gün sonra, Mimak bölgəsi, daha sonra isə, Rəşidiyyə, Çilat, Bayat keçid məntəqələri və Giskeh yüksəkliyi İraq ordusu tərəfindən işğal edildi.



## İraq ordusunun müharibənin əvvəlindəki fəaliyyətləri

İraq ordusunun sərhəd boyunca nizamlı əməliyyatları ilə paralel olaraq, düşmən digər tədbirlərə də əl ataraq, Xuzistan qəbilələrinə, o cümlədən də, sərhəddəki əks-inqilabçı ünsürlərə silah paylamaqda idi. Bu fəaliyyət o qədər geniş xarakter almışdı ki, bəzi sərhəd şəhərlərində, o cümlədən də, kürdlər yaşayan bölgələrdə, silah alqı-satqısı adi hala çevrilmişdi və bu işin bazarı mövcud idi. Həmçinin, ümumilikdə bu qeyri-nizamlı əməliyyatları bəzən İraq ordusu, bəzən də İraqın digər silahlı qüvvələri dəstəkləyirdilər. Sərhəd əyalətlərində vəziyyətin qeyri-sabit olması insanların, ordu və hüquq -mühafizə qüvvələrinin çoxlu itkilər verməsinə səbəb olurdu.

Yolların minalanması, ictimai və iqtisadi mərkəzlərdə bombaların partladılması, hərbi maşın karvanlarına və ictimai nəqliyyat vasitələrinə pusquların qurulması, gecə basqınları bu fəaliyyətlərdən bəziləri idilər.

## Hücumun başlanması

### Hava hücümları

İraq, 22 sentyabr 1980-ci il tarixində, saat 14: 00-da hava zərbələri ilə ümumi hücuma başladı və bir neçə saat ərzində ölkənin hava limanları da daxil olmaqla 19 əsas nöqtəni hədəf aldı.

**Quru hücumu:** İraq ordusunun quru qoşunları üç cəbhədən İrana hücum etdi:

**Cənub Cəbhəsi:** Şələmçe istiqamətindən Xürrəmşəhr və Abadanı ələ keçirmək üçün 3 zirehli, 11 piyada və 2 xüsusi təyinatlı briqada hücuma keçdi.

Əhvazı ələ keçirmək məqsədi ilə Kuşək istiqamətindən 5–ci mexanikləşdirilmiş diviziya hücuma keçdi.

9-cu zirehli diviziya Bustan və Susəngərdi ələ keçirmək və Əhvaza doğru irəliləmək məqsədi ilə Çezabeh istiqamətindən hücuma keçdi.

1 mexanikləşdirilmiş və 10 zirehli diviziya ardıcıllıqla Fəkeh və Eynxoş istiqamətində Şuş, Dezful və Dehlerana hücuma keçdi.

**Orta cəbhə:** - Mehranı tutmaq üçün 2 -ci Dağ Piyada Diviziyası hücuma keçdi.

- Somar və Neftşəhri tutmaq üçün 12 -ci Zirehli Diviziya hücuma keçdi.

- 8-ci Dağ Piyada Diviziyası və 6-cı Zirehli Diviziya Qəsrişirin, Sərpol Zəhab və Qərbi Gilanı ələ keçirmək üçün hücuma keçdi.

**Şimal Cəbhəsi:**7 -ci Piyada Diviziyası Nosud və Marivanın sərhəd yüksəkliklərini ələ keçirmək üçün hücuma keçdi.

İraq Xuzistan bölgəsində məqsədinə çatmaq üçün xeyli qüvvə sərf etdi. Müharibənin ilk günündə mexanikləşdirilmiş qüvvələrinin 100% -ni, zirehli qüvvələrinin isə 40% -ni

Xuzistanda istifadə etdi. Orta cəbhədə dayandıqdan sonra isə, cənub cəbhəsindəki zirehli qüvvələrinin sayısını iki qat artırdı. Zirehli qüvvələrinin 80% -ni isə Xuzistanda cəmləşdirdi. Bununla yanaşı, xüsusi təyinatlı briqadalarına kömək etmək üçün cənub cəbhəsinə bir piyada diviziyası da göndərdi.

## Müqavimət




Müharibə elə bir vaxtda başladı ki, hələ İslam İnqilabının doğuluşundan heç 19 ay belə keçməmişdi. İslam Respublikasının

hökumət sistemi formalaşmamışdı və ölkənin kənar bölgələrində müxtəlif hadisələr baş verməkdə davam edirdi. İslam İnqilabı Keşikçiləri Korpusu və İslam İnqilabı Komitəsi, Xalq Qüvvələri ilə birlikdə ölkə daxilində təhlükəsizliyi təmin etmək vəzifəsini öz üzərinə götürmüşdülər.



Ordu isə, yeni və inqilabi vəziyyətə uyğunlaşmaqdan hələ çox uzaq idi. Eyni zamanda, İslam İnqilabı Keşikçiləri Korpusu və ordunun bir faizi də kürdlər yaşayan bölgələrdəki mövcud

böhranla əlaqədar səfərbər edilmişdilər. Hərbi komandirlərin İraq ordusunun ümumi hücumunun mümkün olmadığına əsaslanan təhlili mərkəzi və cənub cəbhəsinin müdafiəsinə etinasızlıqla yanaşmaya səbəb oldu. Bu səbəbdən də, İraqın ümumi işğal hücumu zamanı yerli qüvvələr tamamilə təəccübləndilər.




Düşmənin inqilabçı qüvvələrə hücum edəcəyi, yaxın zamanda İraq ordusunun ümumi həmləsinin başlanacağı, Xanlili bölgəsi işğal olunana qədər ölkənin ən yüksək hərbi komandirləri tərəfindən dərk edilməmişdi. Həmin tarixdən etibarən, təchizat və

qoşunların səfərbərliyi prosesi ləngiməkdə idi. Belə ki, ilk köməkçi hərbi birləşmələr, müharibənin başlamasından bir neçə gün sonra bölgəyə gələn 21 -ci Həmzə Diviziyasının 2  taburu idi. Qalan hissələr isə, düşmənin irəliləməsi dayandıqdan sonra əməliyyat bölgəsinə daxil olmuşdular. Başqa sözlə, strateji baxımdan, düşmənin əsas məqsədinin bilinməməsi səbəbindən, taktiki cəhətdən isə, Bəni Sədrin "vaxt qazanmaq üçün torpaq ver" planı ilə əhəmiyyətli ərazilər itirildi.

## Özünəinamın qazanılması

İraqın inqilabi və İslami ölkə olan İrana hücumu belə bir fərziyyə üzərində qurulmuşdu ki, yeni rejimin ordusunda lazımi qədər qüvvə yoxdur. Bu fərziyyə doğru olsa da, İslam İnqilabından düzgün xəbəri olmayan düşmən, onun müharibə vəziyyəti də daxil olmaqla, müxtəlif problemləri və böhranları həll etmək üçün potensial enerjisinə və böyük istedadına inanmırdı. Eyni zamanda, inqilabi qüvvələrin özlərinin də gizlin gücləri haqqında dəqiq təsəvvürləri yox idi. Buna görə də, müharibənin ilk günləri

düşmənin təşəbbüskarlığı və İran qüvvələrinin passivliyi ilə başladı. Ancaq inqilabın istedadları tədricən ortaya çıxdı və yeni silahlı qüvvələr yaradıldı. Şahlıq rejiminin süqutunun ardınca yaradılan bu yeni qüvvələr nəinki onun ordusunun yerini doldurdu, hətta, müharibənin taleyinin həll olunmasında da ən əsas faktor oldu.

İnqilabdan qaynaqlanan hərbi sistemi formalaşdırmaq üçün lazım olan həmin istedad, müharibənin ilk günlərindən görünsə də, tədricən İslam İnqilabı Keşikçiləri Korpusunda təcəlli etdi. Ancaq tam yetkinlik mərhələsinə çatmaq üçün uzun müddət lazım idi. İlk öncə, yeni hərbi təşkilat nəinki düşmən üçün qeyri məlum idi, hətta inqilabçı qüvvələrin də gələcək ilə bağlı dəqiq bir proqnozu yox idi. Daha doğrusu, bəzi daxili amillər, qeyri inqilabçıların düşüncələri, o cümlədən də, əksinqilabçılar yeni təşkilatın yaranmasının sürətlənməsinə mane olurdular.

Müharibənin başlanğıcında bir qrup şəxslər hərbi işlərə rəhbərlik edirdilər. Birinci qrupun inqilabi baxışları yox idi. İkinci

qrup, İraq ordusunun kiçik olması səbəbindən düşmən qarşısında bərabər müqavimətə inanmırdılar. Üçüncü qrup, əvvəlki rejimin hazırladığı müdafiə üsullarını İraq ordusu ilə qarşı-qarşıya gəlmək üçün yetərli hesab edirdilər. Onlar bu baxışa əsaslanaraq, üç böyük əməliyyatı planlamışdılar. Amma hər üç əməliyyat uğursuzluqla nəticələndi. Təəssüf ki, bu məğlubiyyətlər onların baxışlarına heç bir təsir göstərmədi. Ümumi Qüvvələr Komandanı (Bəni Sədr) hərbi həll yolunu mümkünsüz gördüyündən, siyasi yollara əl atdı. O, müharibənin başlamasının yeganə faktorunun qərbin İslam İnqilabından və İmam Xomeyninin (r.ə) liderliyindən təhlükə hiss etməsi olduğunu düşünürdü. Qərblə kompromisə yol açmaq və pərdəarxası toqquşmalarla savaşa son qoymaq üçün, İmamın (r.ə) rəhbərliyini zəiflətmək və onun missiyasına qarşı olan bir zərbə ilə ölkə daxilindəki vəziyyəti nəzarət altına almaq istəyirdi. İranın daxili vəziyyəti kritik səviyyəyə düşdükcə, İraqın siyasi mövqeyi də dəyişilirdi. Belə ki, Bəni Sədr müharibəyə son qoymaq üçün danışıqlar şüarını tərk etdi və açıq şəkildə İranın parçalanmasına çağırış etdi. Bəni Sədr, 1981-ci il 5 mart hadisəsi ilə yeni bir

hərəkata başlamaqla, daxili böhranı qızışdıraraq vəziyyəti öz fraksiyasının xeyrinə dəyişməyə çalışırdı. İmamın (r.ə) səyləri onun sui -qəsdlərinin qarşısını almağa və sakitlik mühiti yaratmağa böyük təsir göstərdi. Bəni Sədr və tərəfdarları təşəbbüsün İmamın (r.ə) tərəfində olduğunu düşünmürdülər. Bu vəziyyətdə, Bəni Sədrin Ümumi Qüvvələr Komandanlığından çıxarılmasının mümkün olmadığı və ordunun Bəni Sədri dəstəkləyəcəyi irəli sürülsə də, İmam Xomeyni (r.ə) Bəni Sədri Ümumi Qüvvələr Komandanlığı vəzifəsindən uzaqlaşdırdı. Bu vəzifə isə, müvəqqəti olaraq şəhid general Fəllahiyə həvalə edildi. Ordu, bütün pis instinktlərə baxmayaraq, İmama (r.ə) və rejimə bağlılığını göstərdi.

Eyni zamanda, düşmən hələ də eyni zehniyyətə malik idi və sonrakı hadisələrə ümid bəsləyirdi. İslam Şurası Məclisinin Bəni Sədrin prezidentlikdən uzaqlaşdırılması ilə bağlı səsvermədən sonra baş verən hadisələrin ardınca, Xalq Mücahidləri Təşkilatı silahlı hərəkatı Bəni Sədrin vəzifədən uzaqlaşdırılmasının ilk günü olan 20 iyun 1980 – ci il tarixindən

sonra, 28 iyunda 72 hökumət rəsmisi və millət vəkilini şəhadətə yetirildi.

Məmurlar və ümumi xalqın fərqli təbəqələrinə qarşı terrorlar başladıldı. Xüsusilə də, baş nazirin qərargahında partlayış nəticəsində prezident Məhəmməd Əli Rəcayi və Məhəmməd Cavad Bahonərin şəhid edilməsi, İraqı İranda dəyişikliyin ola biləcəyinə inamını artıraraq, öz müttəfiqləri olan Bəni Sədr və Xalq Mücahidləri təşkilatının qələbəsinə ümidləndirdi.

Bu puç ümid İraqın fövqəl vəziyyətlərdə İslam rejiminin gücünü və İmamların liderlik qabiliyyətini anlamasına mane oldu. Həmçinin düşmən, İmam Xomeyninin (r.ə) böhranı idarə etməyinə, müharibə zamanı yarana biləcək çətinliklərin genişlənməsinin qarşısını almağına, o cümlədən Bəni Sədri devirməklə Ali Baş Komandanlıq bacarıqlarını nümayiş etməyinə baxmayaraq, düşmən hələ də müharibənin əsas kontekstlərini dərk etməkdə aciz idi.

Digər bir tərəfdən isə, inqilabın mərkəzindən çıxan və eyni zamanda hələ hərbi özünəgüvənə yetişməmiş qüvvələr tədricən başa düşdülər ki, müharibənin düyününü yalnız inqilabi qüvvələr aça bilər. Bununla belə, böyük şəhərlərdə kritik və çətin günlər keçirilməsinə baxmayaraq, Sepahın əməliyyat komandiri Şəhid Həsən Baqeri yeni bir strategiya qurmaq üçün dərin düşüncə və diqqətlə döyüş meydanında qazandıqları təcrübələri təhlil edirdi.



## Daxildəki düşmənlərin dəstəklənməsi

Müharibənin birinci ilinin son rübündə başlayan Xalq Mücahidləri Təşkilatının silahlı hərəkatı bir çox məmurun, sadə və müdafiəsiz insanların şəhid edilməsi və öldürülməsi ilə nəticələndi. Müharibənin ikinci ilində, 27 sentyabr 1981 – ci il tarixindən etibarən, Xalq Mücahidləri Təşkilatı daha geniş fəaliyyətlərə başladı.

Samen ul-Əimmə komandirlərinin təyyarəsi vuruldu və Xorasan İslam Respublikası Partiyasının lideri Haşiminejad da şəhid oldu. Bu hadisənin ardınca isə, dörd böyük din xadimi olan Ayətullah Seyid Mirəsədullah Mədəni, Ayətullah Seyid Əbdülhüseyn Dəstğeyb, Ayətullah Məhəmməd Səduqi və Ayətullah Əşrəfi İsfahani də terror ilə şəhid edildilər.

Bu dövrdə ölkə daxilində vəziyyət də qeyri sabit olaraq qalırdı. Sepah döyüş meydanlarında uğurla iştirak etməklə yanaşı, münafiqlərlə mübarizə aparmaq və şəhərlərin təhlükəsizliyini bərpa etmək missiyasını da yerinə yetirirdi. Bu missiya əsnasında

Xalq Mücahidləri Təşkilatının fəaliyyətləri müəyyən edildi və onun çoxlu sayda üzvü həbs edildi. 1982-ci ilin yanvar ayında, çox əhəmiyyətli bir addım olaraq, Sepah qüvvələri Məsud Rəcəvinin Fransaya qaçmasından sonra Musa Xiyabani (təşkilatın ikinci şəxsi) və Əşrəf Rəbiiyə (Rəcəvinin həyat yoldaşı) təhvil verilən Xalq Mücahidləri Təşkilatının qərargahını dağıtdılar.

Musa Xiyabanidən sonra Tağı Zərkeş Xalq Mücahidləri Təşkilatının ölkə daxilindəki missiyasını öz üzərinə götürdü. 1982 -ci ilin aprelində, bənzər bir əməliyyat nəticəsində, yeni mərkəzin komanda qərargahı aşkar edilərək, məhv edildi.

Bu hadisədən sonra, lazımi təhlükəsizliyə malik olmayan Xalq Mücahidləri Təşkilatı fəaliyyətlərini İran xaricində davam etdirməyə başladı. Təşkilat ölkədə yalnız əməliyyat qruplarını saxladı. Onlar isə heç bir iş görə bilmədən ya məhv edildilər, ya da ölkədən qaçdılar. İkinci ildə meydana gələn digər bir əhəmiyyətli məsələ isə Amol hadisəsi idi. "Kommunistlər Birliyi" adlı Maoist bir qrup xalq dəstəyinə sahib olduğunu düşünürdü. 1981 -ci ilin

fevralında, Amolda özlərini "Sorbdaran" adlandıran və bir neçə xəyalpərəstdən ibarət olan bu qrup silahlı qarşıdurmaya başladılar. Bu hərəkat da Sepah və xalqın dəstəyi ilə tez bir zamanda yatırıldı.

## Təcavüzkarın təqibi

Təcavüzkarın təqibi ilə düşmənin işğal etdiyi ərazilərin 85% -i qurtuluş dövrünün sonuna qədər azad edilmiş olsa da, ümumi sərhədin təxminən yarısı, həmçinin, Qəsrişirin, Çəzabeh, Təlaiyə, Kuşək və Şələmçenin sərhəd yüksəklikləri, o cümlədən də Mehran və Nəftşəhr şəhərləri düşmən işğalı altında idi. Bu vaxt Qəsrişirin və Somar düşmənin müşahidə və atəşi altında idi.

Demək olar ki, 2500 kvadrat kilometr İran ərazisi düşmən işğalı altında idi və İraqın tamamilə geri çəkiləcəyinə heç bir zəmanət yox idi. Belə bir dövrdə, beynəlxalq siyasi dairələr İslam Respublikasının hüquqlarının bərpası üçn heç bir yardım göstərmirdilər. Buna görə də, İslam torpaqlarının işğalının davam etməsi məğlub İraq ordusuna mövqeyini gücləndirirdi. Buna görə

də, müharibəyə davam edərək, təcavüzkarı təqib etməkdən başqa çarə qalmırdı.

Müharibənin üçüncü ilində Somar və Mehran şəhərlərinin və bəzi sərhəd yüksəkliklərinin azad edilməsi səyləri ilə paralel olaraq təcavüzkarın təqibi də silahlı qüvvələrin əsas planları sırasında idi.

## Siyasi aksiyaların başlanması

Müharibənin üçüncü və dördüncü illərindəki əməliyyatların nəticələri müharibənin sona yaxınlaşdığı təəssüratını verirdi. Buna görə də, qərbin imperialist qüvvələri bir tərəfdən İrana təzyiq göstərmək üçün İraqı gücləndirmək, digər tərəfdən də İranın qərb düşərgəsinə qayıtmasına yol açmaq üçün İrana yaxınlaşmaq istəyirdilər. Bununla əlaqədar olaraq, bir tərəfdən İraqa qabaqcıl hərbi texnologiya və kütləvi qırğın silahlarının verilməsi, İraqın kimyəvi bombardmanlarına səs çıxarmamaq, İraqa İranın ticarət

və neft gəmilərinə və sənaye obyektlərinə hücum etməsinə kömək etmək kimi tədbirlərin icrası, digər bir tərəfdən isə, müharibənin dördüncü ilində Almaniyanın Xarici İşlər naziri Hans Ditrix Genşerin dünyanın yeddi inkişaf etmiş ölkəsinin nümayəndələrinin də iştirakı ilə Tehrana səfəri bu iddianın təsdiqidir.

Qərb blokunun hərəkətləri ilə paralel olaraq, şərqin super gücü də müharibə vəziyyətindən yararlanmağa çalışırdı. SSRİ İraq ordusunu, xüsusən də hava qüvvələrini gücləndirmək məqsədilə, İraqa MiQ-25 təyyarələrini göndərir, İraq hava qüvvələrinin İranın hava hücumundan müdafiə sistemlərinin imkanlarından daha yuxarı səviyyədə olmasını təmin edirdilər. Digər tərəfdən isə, Liviyaya İrana uzaq mənzilli raketlər tədarük etməsinə icazə verirdilər. SSRİ bu yolla müharibədə təşəbbüsü ələ almağa çalışırdı.

## Vəziyyətin İranın xeyrinə dəyişməsi



Dünyanın İraqa siyasi və hərbi dəstəyi gündən -günə artırdı. ABŞ-ın İraqa verdiyi kəşfiyyat yardımı, İraqa qabaqcıl silah texnologiyasının ötürülməsi, maddi dəstəyi və inkişaf etmiş avadanlıqların çatdırılması, ağır itkilərinə baxmayaraq İraq ordusunu gücləndirmişdi.

Düşmənin yalnızca piyada gücünün 550 batalyona çatdığı və İslam İnqilabı Keşikçiləri Korpusunun hücum gücünün 80

batalyonu keçmədiyi bir vəziyyətdə, bəziləri İraqın mövcud qüvvə ilə uğurlu bir əməliyyata nail ola biləcəyinə və müharibənin sonlanacağına inanırdılar. Bəziləri, mövcud qüvvə ilə mümkün olmasa belə, müharibəni davam etdirməyin zəruriliyinin danılmaz olduğunu düşünürdülər.

Bu inanca əsaslanaraq, İmam Xomeyni (r.ə) müharibənin altıncı ili ərəfəsində, İslam İnqilabı Keşikçiləri Korpusunun tərkibində üç qoşun növünün qurulduğunu elan etdi. 1983 -cü ildən hərbi dəniz fəaliyyəti ilə məşğul olan Sepah, bu məqsədlə bir qərargah yaratmışdı və eyni zamanda ölkənin raket bölmələrinə komandanlıq etməyi də öz öhdəliyinə götürməsi səbəbindən, bu əmri icra etməyə hazır idi. Amma bu sərəncamın icrası üçün vaxt və imkanlar, həmçinin ölkə rəsmilərinin dəstəyi lazım idi.

Uğurlu bir əməliyyat keçirmək üçün Sepahın ən az 300 batalyona ehtiyacı var idi. Lakin ölkə bu qədər batalyonu təchiz etməyə hazır deyildi. Buna görə də, müharibəni davam etdirməyin qeyri-mümkünlüyünü elan etmək və ya mövcud imkanlarla

savaşın davam etdirilməsi kimi iki seçim qarşısında qalan Sepah, ikinci həll yolunu qəbul etdi və mövcud gücə arxalandı. Sepahı gücləndirməyin yeganə yolu Məhəmmədin (s) qoşunları adı altında Bəsic (səfərbərlik) qüvvələrinin geniş şəkildə yerləşdirilməsi ilə mümkün idi. Sepah bu yolla Vəlfəcr 8 əməliyyatı əsnasında 140 batalyonu döyüşə daxil edə bildi. 75 günlük müharibə zamanı İraq ordusundan azad edilmiş ərazini qorumağa müvəffəq oldu.

Altıncı il eyni zamanda hökumətin nisbi olaraq müharibəyə qarışdığı ildir. Baş nazirin müavininin rəhbərliyi ilə Müharibəyə Dəstək Qərargahının qurulması, bəzi hökumət evlərinin və fabriklərinin hərbi istifadəsi hökumətə müharibədə yeni bir rol verdi. Bununla belə, bu faydalı tədbir cəbhənin bütün ehtiyaclarını ödəmirdi.

Müharibənin mahiyyətinin olmaması, uzunmüddətli iqtisadi sanksiyaların təsiri və hökumətin insanların həyat şəraitini normallaşdırmaq öhdəliyi hökumətin müharibədə həlledici rol

oynamasına mane oldu. Hökumətin varlığı, effektivliyinə və faydalı olmasına baxmayaraq, müharibədə dəyişiklik yaratmadı. Başqa sözlə, hökumətin İraq müharibəsində mövcud olmasına rəğmən, bütün vacib müharibələrdə olduğu kimi, ölkənin bütün imkanları da heç vaxt savaşa girməmiş və ya hökumətin savaşa müdaxiləsi üçün lazımi zəmin yaradılmamışdır.



## İraqın Mobil Müdafiə Strategiyası

Belə bir vəziyyətdə, uğurlu Vəlfəcr 8 əməliyyatının ardınca, İraq ordusunun Fav bölgəsindəki İran qüvvələrini dəf etmək üçün 75 günlük səylərinin uğursuz olması, hərbi-siyasi balans İslam Respublikasının xeyrinə dəyişdirdi. İraq ordusu müdafiə kilidindən çıxmaq və daha bir hücum təşkil etmək üçün yeni döyüş üsulu tətbiq etdi. Bu addım İraq rejiminin bəzi məğlubiyyətlərinin əvəzini çıxaraq, İraq ordusunun əhval-ruhiyyəsini bərpa edə bilərdi. Buna görə də, İraq ordusu sərhəd boyunca yerləşən qoşunlarına, müdafiə xətlərinin zəif və həssas bölgələrində, nisbi əhəmiyyət kəsb edən ərazilərdə əməliyyatlar həyata keçirməyi tapşırdı. Müvafiq olaraq, İraq Mehran bölgəsində nisbətən uğurlu bir hücum əməliyyatının ardınca, “mobil müdafiə” adlı yeni bir strategiyanın qəbul edildiyini rəsmən elan etməyə cəsarət tapdı.

## Həlledici il

Müharibə səkkizinci ildə başa çatsa da, onun taleyi yeddinci ildə həll edilmişdi. Favın azad edilməsi və İraq ordusunun

məğlubiyyəti ilə tarazlığın İran lehinə dəyişməsindən sonra, müharibəni başa çatdırmaq üçün böyük bir əməliyyat planlanmağa başlanıldı. Fav adasını ələ keçirmək üçün əməliyyat bölgəsi olaraq Əbu əl-Xasib məntəqəsi seçildi. İraq dəniz yolu Abdulla su hövzəsi bağlanmalı və Bəsrə cənubdan mühasirəyə alınmalı idi.

Belə bir zamanda, əməliyyatın həyata keçirilməsini gecikdirən amillər də mövcud idi. Serpahın xalq qüvvələrinə etibar etməsinə rəğmən, bu qüvvələrin sayının artmasından öncə hər hansı bir əməliyyatı həyata keçirmək qeyri -mümkün idi.

Eyni zamanda, İslam Respublikasına qarşı iqtisadi sanksiyalar və müharibə mövzusunun ölkə rəsmilərinin gündəminin birinci sırasında olduğu bir zamanda, hökumətdən ən az 500 batalyon təchiz etməsini istəmək, mümkün olmayan digər bir amil idi.

Bununla bərabər, inkişaf etmiş silah və zirehlərlə təchiz olunmuş düşmənə qarşı yay aylarında cənubda müharibə aparmaq

çox çətin olduğundan, əməliyyat təxirə salındı. İraqın bəzi azad edilmiş əraziləri yenidən işğal etməsinə səbəb olan mobil müdafiə əməliyyatlarından da bəhs etməmək olmaz. Bütün hallarda, Əbu əl-Xasib bölgəsində əməliyyat planlaması Vəlfəcr 8 əməliyyatının əvvəlindən başlanılmışdır. Əməliyyat planlaması mərkəzləşmiş xüsusi bir taktikaya əsaslanırdı. Lakin, bu plan ortaya çıxdı və düşmən müəmmalı bir şəkildə əməliyyatın xüsusi taktikasını öyrəndi. Buna görə də, əməliyyatın başlaması ilə düşmən əməliyyat bölgəsinin vacib bir hissəsini tutdu. Nəticədə, savaşın taleyini təyin edəcəyi proqnozlaşdırılan əməliyyata Vəl-Fəcr 10 adı verildi.

Fəthin olmaması ilə, əməliyyatın adı dəyişilərək "Kərbəla 4" oldu. Düşmənin "Həsad əl-Əkbər" (Böyük Biçin) adlandırdığı və İraq ordusunun Favı geri alacağına ümid etdiyi bu əməliyyatda düşmənin uğur qazanması düşmənin Dördüncü Kərbəla əməliyyatındakı zəif cəhətlərini tanımamasına səbəb oldu. 20 gün davam edən bu əməliyyatda İraq ordusunun 50% -i məhv edildi.

Əlbəttə ki, Sepah zirehli texnika və helikopterlərlə kifayət qədər təchiz olunsaydı, bu əməliyyatlar mütləq daha yaxşı nəticələr verərdi. Piyadalar tərəfindən düşmənin keçilməz xətləri yarıldıqdan sonra, daxili cəbhə zirehli hissələrlə təchiz olunsaydı, düşməni təqib etməyə davam etmək daha asan olardı. Hərbi Hava Qüvvələri də öz qüvvələrinin irəliləməsini dəstəkləyə bilərdi.

Bunun müqabilində, düşmənin zəif tərəflərini aşkarlayan İran qoşunları, cəmi 13 gün ərzində Kərbəla 5 əməliyyatını hazırladı və icra etdi. Bəsrənin şərqində düşmənin zəifliyindən istifadə edilərək hazırlanan Kərbəla 5 əməliyyatı uğurlu oldu. Düşməni təəccübləndirən əməliyyatın müharibənin taleyini təyin edən nəticələri oldu.

## Müharibənin sonu



Müharibənin səkkizinci ili elə bir şəraitdə başlandı ki, Fars Körfəzi münaqişəsində üstünlük Sepaha məxsus idi. Bu arada Fars körfəzində qarşıdurmalar daha iki ay davam etdi. Bu zaman ərzində 598 saylı qətnamənin necə tətbiq ediləcəyi ilə bağlı müzakirələr davam edirdi. 598 saylı qətnamə, müəyyən dərəcədə İslami İranının hüquqlarını təmin edən bir şəkildə qəbul edildi.

Amma eyni zamanda bəndlərinin icrasının gecikdirilməsi İraqın qınanılmamasını mümkün etdi. Buna görə də İran İslam Respublikası qəbul edilən qətnaməyə düzəlişlər edilməli olduğunu bildirirdi. Lakin İraq beynəlxalq güclərin dəstəyi ilə qətnamənin dəyişdirilməsinə qarşı çıxdı.




1987 -ci ilin qışında İrana qarşı üçüncü şəhər müharibəsi başlanıldı. İlk dəfə olaraq,  xarici texniklərin köməyi ilə mənzili

artırılan İraq raketləri Tehranı vurdu. Hələbçənin kimyəvi bombalanması ilə müşayiət olunan şəhər müharibəsinin yeni mərhələsi, İran İslam Respublikasına qarşı böyük bir faciəvi hadisənin törədilməsi ehtimalını artırırdı. Eyni günlərdə İraq Ordusu Hərbi Hava Qüvvələri tərəfindən 5 min iraqlı kürdün kimyəvi bombalanması və öldürülməsi də İran üçün təhdid hesab olunurdu. Bu zaman İmam (r.ə) İran millətinə xitab edərək dedi: "Bugünkü gecikmə rüsvayçılığa gətirib çıxaracaq."



ABŞ dəniz birlikləri Fars körfəzində hərəkət edərkən, İraq Fava böyük güc və kimyəvi atəşlə hücum etdi. Bu arada, Farlane işindən sonra fəaliyyətsiz olan ABŞ, İraqın da köməyi ilə beynəlxalq arenada təşəbbüsü ələ aldı. Ancaq Favın süqutundan sonra İraqın fəaliyyətlərini gücləndirmək istəmədi. Daha doğrusu, İranı yenidən qərbə tərəf qaytarmaq üçün İrana bir şans vermək istəyirdi. Bunun əksinə olaraq, İran-İraq savaşında yenidən ABŞ-dan geri qaldığını hiss edən Sovet İttifaqına güvənən İraq təcavüzünü davam etdirdi. Bu hadisələr İslam Respublikası tərəfindən 598 saylı Qətnamə qəbul edilənə qədər bir növ ehtiyatla müşayiət olundu. Yəni, özünü məzlum tərəf kimi göstərməyə çalışan və bu baxımdan dünyanın bütün xəbər mediasının köməyindən istifadə edən İraq, İran qətnaməni qəbul etmədən əvvəl, İran torpağında gözünün olmadığını iddia edirdi. Lakin qətnamənin İran tərəfindən qəbul edilməsi ilə ölkə daxilində və xaricində siyasi və təbliğat vəziyyətinin İranın xeyrinə dəyişməsi ilə İraqdakı təcavüzlərin şiddətlənməsinə əlavə olaraq, Xalq Mücahidləri Təşkilatı ünsürləri də Kirmanşahı işğal etmək və

ardınca da, Tehrana doğru irəliləmək məqsədi ilə İrana gəldilər. İmamın (r.ə) bu qətnaməni qəbul edərək öz düşərgəsində bir dəyişiklik yaratması, təşəbbüsü İran ordusuna qaytardı və düşmənin səylərini alt -üst etdi. İran xalqının qətiyyəti olmasaydı, əlbəttə ki, İraq atəşkəsi qəbul etməzdi.



## Müharibənin sonunda İraqın hücumu

Vəl-Fəcr 10 əməliyyatından sonra (Hələbçədə) müharibə yeni bir mərhələyə qədəm qoydu və qısa müddətdə olmasına baxmayaraq qəti nəticələr əldə edildi. Bu mərhələdə, görünməmiş dərəcədə güclənən İraq, hərbi güc tətbiq edərək və keçmiş təcrübələrdən istifadə edərək, İraq sərhədə çatana qədər təşəbbüs göstərməyi və döyüş sahəsini öz xeyrinə dəyişməyi bacardı.1988-ci ilin əvvəlində İslam Respublikasının əsas birlikləri şimal cəbhələrində olarkən, İraq ordusu hazırlıq görmüşdü. İraq fürsətdən istifadə edərək, cənub cəbhəsinə genişmiqyaslı hücumlar etdi.

1988 -ci ilin aprelində, ABŞ -ın İraqa dəstəyi ilə başlandı. Elə həmin il bir Amerika gəmisi İran sərnişin təyyarəsini raketlə vurdu. (Bu hadisə nəticəsində, hamısı mülki olan 290 iranlı sərnişin şəhid oldu.) Yaranan yeni bir vəziyyətin ardınca, İslam Respublikası İslam Respublikası ön şərtlərini yerinə yetirməsə də 598 saylı Qətnaməni qəbul etdi.

## İraq yenidən sərhəddə məğlub oldu

İran İslam Respublikası tərəfindən 598 saylı Qətnamənin qəbul edilməsi ilə 17 aprel 1988 -ci ildə bu hərəkəti İran qüvvələrinin passivliyinin əlaməti hesab edən düşmən Xuzistan və Baxtəran əyalətlərini ələ keçirmək məqsədi ilə yenidən İran torpaqlarına hücuma keçdi. Düşmənin hədəfi bir sıra həssas nöqtələri işğal edərək, İranı danışıqlar masasında oturtmaq idi.

31 aprel 1988-ci ildə düşmən Xürrəmşəhrin şimal, Əhvazın isə cənubundan 13 diviziyaya ilə genişmiqyaslı hücum başlatdı. İstifadə olunan qüvvə, rejimin və İslam Respublikasının silahlı qüvvələrinin imkanlarının zəiflədiyini düşünən və eyni zamanda müharibədə qalib gəlmək niyyətində olan düşmənin vacib əraziləri işğal etmək qərarına gəldiyini göstərirdi. Düşmənin bu hücumdakı istedadı İslam İnqilabı Keşikçiləri Korpusundan bütün gücünə meydana qoymasını tələb edirdi. Hurdan Abadana qədər müdafiə vəzifəsini öhdəliyinə götürmüş olan Sepah işğalçı qüvvələrlə toqquşdu. Bu hücum nəticəsində, Düşmən Əhvaz-Xürrəmşəhr

yolunun bir hissəsini ələ keçirdi və Xürrəmşəhr üçqün ciddi təhdid meydana gətirdi.

Bu təhdiddən ardınca, İmam Xomeyni (r.ə) Sepahın komandanına ünvanladığı mesajda, Xürrəmşəhrin qorunmasının zəruriliyini vurğulayaraq, bu mövzuda belə bir fikir söylədilər: "Metr-metr savaşmaq lazımdır. Bura həyatın və ölümün birlikdə olduğu nöqtədir."

Buna uyğun olaraq, Sepah qüvvələri düşmənə qarşı genişmiqyaslı hücuma keçərək onu yenidən geriyə qovdular. Düşmən təslim olmadı və cənub bölgəsini ələ keçirmək niyyəti ilə yenidən Əhvaz-Xürrəmşəhr istiqamətində hücuma keçdi. Ancaq hər dəfə İran qüvvələrinin rəşadəti nəticəsində geri çəkildi. Beləliklə, düşmən Xuzistanın alınmasından ümidini üzdü.

Eyni zamanda, hücumları zamanı İran tərəfindən qətnamə qəbul edilməzdən əvvəl, İranı heç vaxt bu bölgəyə həssas yanaşmağa vadar etməmişdi. Bu üsulla, İranın daha çox

xəbərdarlıq və reaksiya verməsinə mane olmaqla, Xalq Mücahidləri Təşkilatının öz fəaliyyətlərinə başlaması üçün heç bir ciddi maneə ilə üzləşməməyinə çalışırdı.

Nəhayət, son düşmən tankları cənubdan sərhədə doğru irəliləyərkən, İraq və Xalq Mücahidlər Təşkilatının Kirmanşahı birgə hücumu başladı. İran hərbi qüvvələrinin cənubda cəmlənməsi onlara İslamabada çatmaq və Kermanşahı təhdid etmək imkanı verdi. Düşmən İslamabadda günahsız insanları qətlə yetirdikdən sonra Kirmanşaha hücuma keçdi. Lakin Çaharzbar boğazında İslam İnqilab Keşikçiləri Korpusunun birinci qrupu yeni qurulan Vəli Əmr (ə.c) diviziyası ilə düşmənin yolunu kəsdi ki, digər Sepah bölmələri tədricən bölgəyə daxil olsun. Xalq və hərbi qüvvələrin döyüş meydanına girməsindən İslamabad və Çaharzebər bölgəsinə hücuma başlamasından sonra şəhid Səyyad Şirazinin komandanlığı altında Xalq Mücahidlər Təşkilatının qüvvələri məhv edildi.

Beləliklə, düşmənin Xuzistan və Kirmanşaha hücumu dəf edilməklə, Xalq Mücahidlər Təşkilatı məhv edildi. İraq ordusu 1 avqust 1988-ci il tarixində sərhəd zolağına qayıtdı. Həqiqətdə, xalqın kütləvi iştirakı və İslam qüvvələrinin cənub və qərb cəbhələrinə axışması ilə əməliyyatların davamı ilə üstünlük əldə etməyə çalışan düşmən məğlub edildi.

20 may 1988-ci ildə düşmənin atəşkəsi bəhanə etməsi sonlandırıldı və BMT-nin Baş katibi tərəfindən rəsmi atəşkəs elan edildi. Daha sonra İran və İraqın ortaq sərhədində BMT müşahidə qüvvələrinin (UNIIMOG) iştirakı ilə iki ölkə arasında rəsmi atəşkəs rejimi quruldu.

İraqın vurduğu zərbələrə baxmayaraq, İrandan geri çəkildikdən sonra, Küveytin işğalına qədər 2500 kvadrat kilometr ərazini əhatə edən sərhəd boyunca yerləşən əraziləri də nəzarətdə saxladı. Bu müddət ərzində, BMT nəinki İraq ordusunun işğal etdiyi İran bölgələrindən çıxarmaq üçün hərəkətə keçmədi, həm də

İraq Küveytə daxil olana qədər İraqın İrana hücumunu təsdiqləməkdən imtina etdi.

Lakin 1990 -cı ilin avqustunda İraqın Küveytə hücumu ilə rejim eyni zamanda iki cəbhədə iştirak etmək istəmədiyi üçün işğal etdiyi İran ərazilərindən geri çəkildi. İranlı məhbusları azad etdi və 1975 -ci il müqaviləsinə sadiq olduğunu bildirdi.

## Milli azlıqlar və xalqların Müqəddəs Müdafiədə olması

### milli birliyin təzahürüdür

İrandakı milli azlıqlar və fərqli etnik qruplar, ölkənin və İslam sisteminin müqəddəs müdafiəsində koordinasiyalı rol oynayıblar. İran, tarix boyu xalqlar və subkulturaların birləşməsi olaraq tarixdəki ilk millət və dövlətdir. Tarix boyunca, İran torpaqlarının bəzi hissələrinin bir-birindən ayrılmasına baxmayaraq, həmişə bu torpağa mənsubluq hissi səbəbiylə tarixin

gedişatında böyük hərəkatlərə şahidlik etmişdir. Etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq, bir çox iranlılar bu hərakatlarda iştirak ediblər.




İslam İnqilabı və səkkiz illik müqəddəs müdafiə İranın bütün xalqlarının və dini azlıqlarının yaratdığı dəyərli mədəni və siyasi mirasdır.Onların hamısı (azəri, kürd, bəluc, ərəb, türkmən və s.) xristian, zərdüşt və yəhudi soydaşlarının eyni amillərdən (İranlılıq və İslamçılıq) təsirlənməsi onun yaradılmasında əsas rol

oynadı. İran İslam Respublikası müxtəlif xalqların yaşadığı bir ölkədir. İranın rəsmi olaraq altı etnik qrupu var (fars, azəri, kürd, ərəb, bəluc və türkmən). Bundan əlavə, onlar bir çox mədəni, tarixi, dini və geosiyasi maraqları bölüşürlər. Dini olmayan bir çox ölkələrin adlarının və loqotiplərin, öz milli kimliyi ilə heç bir əlaqəsi olmayan etniklər və yayılmış dillərin əksinə olaraq, İran adı bütün iranlıların kollektiv kimliyini təmsil edir. İran adı fərqli etnik qrupların, fərqli dinlərin ardıcıllarının və fərqli dil və ləhcələrdə danışanların göstəricisidir. Onların hamısı iranlı adlanır. Həqiqətdə, İrandakı müxtəliflik, fikir ayrılığının deyil, milli birliyə səbəb olan yaxınlaşma və daxili qarşılıqlı təsirlərin əsas faktorudur.



8 illik müqəddəs müdafiə tarixinə bir baxış bu etnik qrupların və dini azlıqların İslam vətəninin müdafiəsində həmrəy olduğunu göstərir. Bir baxıma, İrandakı fərqli etnik qrupları azlıq adlandırmaq olmaz. Çünki iranlılar həmişə fərqli etnik qruplardan tşkil olunub. Buna görə fars, azəri, kürd və bəluc tayfalarının hamısının İran kökləri var. Ancaq dini azlıqlar, yəni konstitusiyada tanınan dinlərə inanan insanlar, vətənə bağlı olduqları üçün, həm şiə, həm də sünni olan müsəlman həmvətənləri ilə çiyin-çiyinə verərək, İranın izzətini qorumaq üçün müdafiə sahəsində tarix yazdılar. Bu kitabda müqəddəs müdafiənin bu epik yaradıcılarının rolu nəzərdən keçirilir, bu isə birlik və empatiyanın təzahürüdür. Şübhəsiz ki, yaranan böhranların öhdəsindən gəlmək üçün milli və dini bağları hərəkət etdirmək və qorumaq üçün şanlı vətən tarixinin bu dövrünü yenidən tədqiq etmək əhəmiyyətlidir.

Buna görə də, dini və İslami kimlik İran kimliyinin əsası olaraq qəbul edilib yayılsa da, vətənpərvərlik hissi, İran adət və ənənələrinə bağlılıq və s. kimi İran kimliyinin digər tərəfləri hələ

də İran cəmiyyətinin kimliyi ilə birlikdə qorunub saxlanılmışdır. Bunun təzahürünü, İran-İraq müharibəsi zamanı vətənpərvərlik və millətçilik hisslərində və İran xalqlarının müqəddəs müdafiə zamanı olan birliyində müşahidə etmək olar. Müqəddəs Müdafiə dövründə, İran cəmiyyəti və dövlətin vəhdət və milli birliyin ən yüksək həddinin şahidi olduq.



## Vətənin müdafiəsinin təşkili

Müqəddəs Müdafiə şəraitinin, İslam döyüşçülərinin etnik və dini tərkibinin nəzərdən keçirilməsi göstərir ki, Məşrutə və İslam İnqilabından sonra Müqəddəs Müdafiə də iranlıların həmrəyliyinin və milli kimliyinin möhkəmləndirilməsinin təzahürüdür. Hətta bu dövrdə insanların məmurlara siyasi etimad səviyyəsi təəccüblü dərəcədə yüksək olmuşdur. Milli kimlik və milli birliyin gücləndirilməsinin simvollarından biri də dini azlıqların və fərqli etnik qrupların Müqəddəs Müdafiədə iştirakıdır. Fakt budur ki, Müqəddəs Müdafiədə kiçik məsələlər bir kənara qoyulmaqla, bütün etnik və dini azlıqlar, istər xristianlar, istərsə də müsəlmanlar, bir araya gəldi və bu birlik Müqəddəs Müdafiənin sona çatmasına səbəb oldu. İran xalqının indiki vəziyyəti də belədir. İranın ən böyük əhali qrupu olan farslardan sonra təbii ki, fərqli ləhcələrə malik müxtəlif xalqlar içərisində, Azəri xalqı İranın milli tərkibində ən böyük etnik qrupudur. Bu etnik qrup əsasən İranın şimal-qərb hissəsində, Qərbi Azərbaycan, Şərqi Azərbaycan,

Ərdəbil, Zəncan və Qəzvin vilayətlərində yaşayır. Onlar həmçinin, Həmədan vilayətində və Gilanın qərbində də məskunlaşıblar.

Kürdlər, farslardan və azərilərdən sonra İranda üçüncü ən böyük etnik qrupdur. Bu xalq hazırda ölkənin qərbində Kürdüstan əyalətlərində, Qərbi Azərbaycanın cənubunda, Kirmanşah və İlam əyalətlərinin bir hissəsində məskunlaşıblar. Bu bölgə İraqın şimalı, Türkiyənin cənub-şərqi və Suriyanın şimal-şərqi kimi kürdlərin məskunlaşdığı bölgədir. Bu xalqın bir qrupu Xorasanın şimalında da yaşayırlar.

Ərəb xalqları - Ərəb xalqının əsas ərazisi İranın cənub - qərbində yerləşən Xuzistan əyalətidir. Bəluclar - İranın cənub - şərqində (Bəlucistan bölgəsi), Əfqanıstanın cənub -qərbində və Pakistanın qərbində coğrafi ərazidə yerləşirlər. Dini baxımdan, İranın bəluc azlığı sünnidirlər. Bu səbəbdən də, Hindistan və Pakistanda yaşayan bəluclarla İrandakılar fərqlidirlər.

Deyə bilərik ki, İran etnik qruplarının əhalisi ilə Müqəddəs Müdafiədə şəhid olanların sayı arasında da birbaşa əlaqə var. Bu o deməkdir ki, İran əl-ələ verərək, İslam torpağının müdafiəsində rol oynayıblar.

## Müqəddəs Müdafiə və Dini Azlıqlar

Dini azlıqların inqilaba və müqəddəs müdafiəyə bağlanmasının səbəblərindən biri də İslam Respublikası tərəfindən hüquqlarının təmin edilməsindən irəli gələn əminlik hissi idi. İmam Xomeyni (r.ə) İslamın azlıqlara qarşı mövqeyi ilə bağlı ilk müsahibələrində belə demişdir: "İslamın azlıqlara münasibətinin humanitar və ədalətli olduğundan əmin olmalıdırlar. Bütün azlıqların İslamın azlıqlara münasibətdə insani və ədalətli davrandığından əmin olmağı lazımdır. Hər kəs firavandır və digər azlıqlar kimi millətin bir hissəsidir. Biz hamımız bu ölkədə yaşayırıq.

Həmçinin, İmam Xomeyni (r.ə) bir qrup xristian, yəhudi, assur və zərdüşt soydaşlarına belə müraciət etdi: " Biz hamımız

tövhid bayrağı altındayıq. Birlik olmadıqca küfrə qarşı müqavimət göstərə bilmərik. Hamımız vahid tövhid bayrağı altındayıq. İran hamımıza məxsusdur. Tövhid hər kəsin dinidir. Bizim belə ortaq cəhətlərimiz var. Biz vahid bir millətik və hamımız İranla bağlı məsələlərdə birlik olmalıyıq."

Bütün İran millət arasındakı birlik, mərhum İmamın (r.ə) rəhbərliyi və xalqın dərin inancı ilə səkkiz illik müharibədə zəfərin açarıdır.

## İran İslam Respublikasının Ali Dini Rəhbəri

**Həzrət Ayətullah Seyid Əli Xameneinin baxımından Səddamın müharibədəki məqsəd və planları:**




- Düşmənlərimizin ən böyük, ən ağrılı və ən fəlakətli düşmənçiliyi müharibəni başlatmaq idi. Qonşumuzun hisslərini stimullaşdıraraıb, onu dəstəkləyib, köməklik göstərərək bizə hücum etməyə təşviq etdilər. Qonşu

dövlətin ambisiyaları təhrik edildi. Bu gün, müharibədən yeddi il sonra, hər kəs əmin ola bilər ki, İraq ordusu İslam Respublikasının qurulmasından 19 ay sonra, 22 sentyabr 1980 – ci ildə on diviziya və yüzlərlə qırıcı ilə qurudan, havadan və dənizdən hücuma keçdi. İraq və digər dövlətlərin kitablar və mətbuatlarında dəfələrlə bildirildiyi kimi müharibənin hədəfi ekspansionizm və İranın bir hissəsinin İraqa birləşdirilməsi ilə yanaşı, inqilabın və İslam Respublikasının devrilməsi idi.

- Onlar dəfələrlə hər iki hədəfini açıq şəkildə ifadə edərək, özlərini ifşa ediblər. İraqın qələbədən əldə edə biləcəyi böyük nəticələr, daxili vəziyyətini sabitləşdirməkdən başqa regional platformada və hətta ərəb ölkələrində hakim bir güc olaraq ortaya çıxması ola bilərdi. Bu İraqın ağılsız başçısı üçün böyük bir şey idi. Eyni zamanda, Fars körfəzinin sərhədinin çox əhəmiyyətli bir bölgəsini əldə etmək çox mühüm idi. İraqın qələbəsi istər–istəməz İran

İslam Respublikasının süqutunu qaçılmaz edə bilərdi. Beləliklə, hakim qüvvələr də böyük hədəflərinə yetişə bilərdilər. Bu isə, bölgənin siyasi və iqtisadi balansını dəyişdirən, xüsusən də ABŞ-ı böyük İran ölkəsindən ayıran bir sistemin ləğv edilməsi demək olardı. Amerika və digər qüvvələr üçün İranın məğlubiyyəti, çarxın yenidən dönməsi və İrana qarşı əvvəlki kimi iqtisadi, siyasi və s. kimi təsirlərin təkrardan başladılması demək idi. (BMT Baş Assambleyasında çıxış)

## Ayətullah Seyid Əli Xameneinin baxımından Müqəddəs Müdafiədəki Nailiyyətlər

- **İran torpağından bir qarış da ayıra bilmədilər**

Amerika Birləşmiş Ştatları səkkiz illik İran-İraq müharibəsi zamanı Səddama kömək edirdi. NATO Səddama kömək edirdi. SSRİ Səddama kömək edirdi. Ərəb irticaçıları bütün səriştəsizliyi və zəifliyi ilə Səddəmə kömək edirdi. Bütün dünya Səddama

kömək etmişdi. Yəni Şərq və Qərb Səddamın lehinə və İran İslam Respublikasına qarşı vahid cəbhəyə çevrilmişdi. İslam Respublikası onlardan isə bir an belə qorxmadı. Ayağa qalxdı və Allahın lütfü ilə hamısına qalib gəldi. Bütün düşmənlərini məğlub etdi. Səkkiz illik müharibədən sonra İran ərazisinin bir qarışını da İrandan ayıra bilmədilər.

- **Millətlər üçün nümunə olan müqavimət hərəkatı**

**Müharibənin əsas müddəası barədə:** Birincisi, bu müharibə müdafiə savaşı idi. Müdafiə savaşı ilə hücum döyüşünün məna və məzmun baxımından iki əsas fərqi var. Birinci fərq, hücum döyüşünün təcavüzkar xarakterli olmasıdır. Ancaq müdafiə savaşı belə deyil. İkincisi, müdafiə savaşı, insanların sadiq qaldıqları ideallara qeyrət, fədakarlıq və dərin ehtiramının təzahürüdür. Yəni, bu ideallar ya vətəndir, ya da daha yüksəkdə dayanan din, əqidə və İslamdır. Təcavüzkar bir müharibədə bu ideallar mövcud olmur. Təsəvvür edək ki, ABŞ İraqa hücum edir. Amerikalı əsgər bunu vətən sevgisi üçün etdiyini iddia edə bilməz.

İraqın vətəni ilə nə əlaqəsi var?! Başqa məqsədlər üçün xidmət edirlər.

Ancaq ölkəsinin içərisində bir İraqlı bu hücuma, hərbi istilaya və hərbi təcavüzə müqavimət göstərsə, bunun mənası vətənini qorumaq, milli kimliyini müdafiə və sadiq olduğu dəyərləri mühafizə etmək deməkdir. Müdafiə və hücum müharibəsi arasında bu iki fərq mövcuddur.

Bizim müharibəmiz müdafiə savaşı idi. İran milləti təcavüz və işğal etmək niyyətində olduğunu göstərmədi. İran milləti milli kimlik və ondan daha dəyərli idealları müdafiə etdiyini göstərdi. Bu adi bir müqavimət deyildi. Digər millətlərə nümunə ola biləcək bir müqavimət idi. Fələstinlilər də bizə dedilər ki, sizdən öyrəndik. Livanlılar da bu illər ərzində dəfələrlə bizə bildirmişdilər ki, biz də sizdən öyrəndik. Müsəlman olmayan millətlər müsəlmançılığı qəbul etdilər, müsəlman olanlar isə Əhli Beyt (ə) məktəbinin izi ilə getməyə başladılar. Müxtəlif yerlərdən dəfələrlə deyiblər ki, biz sizing müharibənizdən, müdafiənizdən və mübarizənizdən çox

şeylər öyrənmişik. Doğrudan da, Müqəddəs Müdafiə dövrü belə bir dövr idi və belə məzmuna malik idi.

- **Səkkiz illik müharibədə İraq və Qərbin uğursuzluğu**

Mömin və inqilabçı İran milləti öz birliyi və əzmi ilə Amerika, İngiltərə və SSRİ və sabiq Şərq Bloku tərəfindən silahlandırılaraq, kəşfiyyat və siyasi baxımdan dəstəklənən Səddam rejiminin təcavüzkar hücumunu dəf edərək, onu sərhəd zolağından geriyə qova bildi. İran şəhərləri illərlə həmin Səddam Hüseyn tərəfindən bombalandı və raket yağışına tutuldu. Azadlıqsevər və fədakar gənclərin üzərinə kimyəvi bombalar atıldı. Lakin, İran millətinin müqaviməti diktatura və təcavüzkar rejimin bütün nağıllarını alt-üst etdi.

- **İranın inkişafı şəhid və qazilərin cihadlarının nəticəsidir**

Ey şəhid övladları! Atalarınızla fəxr edin. Onlar tarixin gedişatını dəyişdirdilər. Onlar dünyanın ən vəhşi istismarçılarını

dizə gətirən kəslər idilər. O şəhidlər millətini izzətləndirdilər və Allahın dinini qorudular. Bu gün İran iqtisadiyyat, siyasət, elm, texnologiya və beynəlxalq fəaliyyət sahələrində böyük irəliləyişlər əldə edib .... Ancaq bu inkişaf həmin müdafiə və mübarizələrdən qaynaqlanır. İran milləti bütün varlığını həmin fədakar insanların səylərinə borcludur. Onlar həmin fədakar insanlardırlar ki, şəhid oldular. Siz fədakar insanlarsınız ki, şəhid verdilər. Həmin həmin fədakar insanlar ki, qazi oldular. Həmin qazilər ki, öz əzizləri üçün şətin qazilik həyatına dözdülər. Onların ataları, anaları, həyat yoldaşları zalım düşmənin zalım düşmənin əlinə əsir düşənlərinin əsirlik dövrünə anbaan səbr etdilər. Həmin əsirlər ki, geri qayıtmadılar və elə oradaca şəhid edildilər. O insanlar ki, təhlükəni gözə alaraq cəbhələrə yollandılar və bütün qüvvələrini sərf etdilər. Amma Uca Allah onların sağ qalmalarını, ölkələrinə və İslam dünyasına olan bərəkətlərinin davam etmələrini istədi.

- **İslam bayrağı şəhidlərin qanı bahasına ucaldıldı**

Bu gün dünya arenasına baxanda görürsünüz ki, İslam bayrağı dalğalanır. İslam əzizdir. Müsəlman xalqlar İslam hökuməti uğrunda mübarizə aparırlar. Müsəlmanların qəlbi ümidlə doludur. Müsəlmanların gələcəyi parlaqdır və millətlər dünyanın cəhənnəm güclərindən qorxmurlar. Bu həmin zillət hissi idi ki, zəif millətlər onilliklər ərzində, hətta də əsrlər boyu ona dözdülər. Bu gün o zəiflik və alçaqlıq hissindən xəbər yoxdur. Millətlər cəsarətlənib, güclənib və hərəkətə keçməyə qadir olublar. Əgər kimsə ədalətlidirsə və dünyanın bu böyük həqiqətini təhlil etmək istəyirsə, bütün bu nemətlərin həmin gənclərinizin və övladlarınızın qanı sayəsində olduğu qənaətinə gələcək.

Bu inqilabın qələbəsindən sonrakı illərdə müxtəlif cəbhələrdə iştirak edən bu döyüşçülər sayəsində. Həyatlarını heçə sayaraq, İlahi məqsədləri düşündülər. Bəziləri şəhid oldular, bəziləri isə yaralanıb qazi oldular. Gənc yaşlarında fiziki sağlamlıqlarından məhrum oldular. Bəziləri isə, düşmən tərəfindən

əsir götürüldü və uzun illər həbs və işgəncələrə məruz qaldı. İslama o şərəfi və böyüklüyü ərməğan edənlər onlar idilər. Ey öz gənclərini yaxşı tanımayan valideynlər!

Bəzən əziz şəhidlərin ataları və ya anaları ilə şəhidləri haqqında danışanda mənə deyirlər ki, övladları sağ ikən onların mənəvi əzəmətini başa düşməyirdilər. Onlar həmin gənclər idlər ki, o valideynlər böyütmüşdülər. Atalar və analar bu mücahidlərin Allah rizası üçün böyüklüyünü həqiqətən anlaya bilmirlər. Bəlkə də, millət bu parlaq ulduzların böyüklüyünü dərk edə bilməz. Demək istərdim ki, biz bu əziz şəhidlərin əməyinin böyüklüyünü hələ də düzgün anlaya bilmirik. Bilirsinizmi ki, bizim bu böyük və fədakar şəhidlərimiz, iman dolu könüllü möminlər, ordumuz dünyada necə bir tarix yaratdılar?!

- **Şəhid və döyüşçülərin bərəkəti sayəsində millətlərin İslama sevgisinin artması**

Bu gün müsəlman ölkələrinin liderləri, hətta İslamdan çox da nəsibi olmayanlar, zahirdə özlərini İslami göstərmək məcburiyyətində qalırlar! Niyə? Çünki millətlər İslamı istəyir. Bu gün qlobal küfr və istikbar qurumları, müsəlmanlardan qorxduqlarını hiss edirlər. Niyə? Çünki müsəlmanlar artıq özlərini alçalmış hiss etmirlər. Bu gün müsəlmanlar dünyanın heç bir yerində öz müsəlmanlarından utanmırlar. Əksinə, bununla fəxr edirlər. Bunları inqilab etdi. Bu böyük hərəkatda sizing övladlarınızın, şəhidlərinizin, döyüş meydanlarında və digər cəbhələrdə qanını torpağa tökənlər birinci sıradadırlar.

Biz bu gün bu işin böyüklüyünü hələ də anlaya bilmirik. Tarix bunların barəsində yazacaq. Tarixdən peyğəmbər (s) dövrünün dəyərli şəhidləri Uhud döyüşünün iki igid qardaşı Hənzələ, Həmzə, və başqalarının həyatlarını öyrənmişik. Amma

bu gənclər bizə minlərlə Həmzə Seyid əş-Şühəda və minlərlə Hənzələni göstərdilər. Onları öz gözlərimizlə gördük və böyüklüyünü anladıq.

- **Millətin 8 illik müharibədə iştirakı səbəbindən imperialistlərin İslamdan qorxması**

Bu gün dünyanın istikbarçı gücləri İslamdan qorxurlar. Çünki onlar sizin gənclərinizi görüblər. Çünki onlar sizin cəbhələrinizi görüblər. Çünki onlar döyüşçüləri görüblər.Gördülər ki, bu millət okean kimi coşaraq necə fırtına qopardı. Allah yolunda heç bir şeydən qorxmadırlar. Çünki onlar atalarını və analarını görüblər. Gördülər ki, uşağının ayağına tikan batmağa dözə bilməyən ana incə və çoxsaylı duyğu ilə, Allah yolunda övladından o qədər asan keçdi ki, hər kəsi heyrətləndirdi. Bir şəhid, iki şəhid, üç şəhid, dörd şəhid; Həmin atalar, analar, həyat yoldaşları və onların əzizləri elə səbr etdilər ki, insan nə qədər baxsa da, heyrət və təəccüb içində ona bənzər bir şey tapmır. Bu millətə Allahın lütfünü gətirən həmin səbr idi.

- **Müharibədə düşmən hədəflərinin məhvi və daha da güclənməyimiz**

Sentyabr ayının sonuncu və oktyab ayının ilk günləri millətimiz üçün bir hadisəni və ibrətamiz bir hekayəni xatırladır. Bu müddətdə bir çox incılıklər ortaya çıxdı. Bunlar tarixdə qalacaq. Bundan əlavə, "Əməlləri qeyd edən mələklər" in dəftərində və Allahın sonsuz elmində, Allahın mükafatı verilənlər olaraq qeyd olunacaq. Bu ibrətamiz hadisə və hekayə İran millətinin səkkiz illik müdafiəidir ....

Bütün silahlı qüvvələr – ordunun döyüşçülərinin hər birinin Uca Allahın dərgahında alacaqları bir mükafarı vardır. Lakin ordu öz fədakar və sadiq mübarizəsi ilə aşağıdakı ayəni təsdiqləyərək, İslam həqiqətlərindən birini canlandırdı.

" صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ "

Tərcüməsi: "Onlar Allaha etdikləri əhdə sadiq olarlar" (Əl-Əhzab surəsi, ayə 23)

O isə belə deməkdir –adi səbəblərin əsiri olan insanlar, Allahla əlaqəsi olduqda, necə böyük bir əzəmət və mənəvi güc qazanır ki, hətta maddi aləmin bütün faktorlarına da qələbə çalır. Biz bunun qədrini bilirik. İslam təlimlərində buna heç bir şübhə yox idi. Ancaq bilmək hara, görmək hara, toxunmaq hara?!

Bütün dünya birləşərək İslam Respublikasına hücuma keçdi. Bunda heç kısin şübhəsi yoxdur. Biz bunu o gün də deyirdik. Amma müharibə bitdikdən və hər şey sonlandıqdan sonra bunları hamı dedi və gizli sirlər beləcə açıldı. Hamı İranın üzərinə hücum edirdilər. Burada şöləlenən alovlardan qorxduqlarından hamısı onu söndürməyə çalışırdı. Onların müharibə başladıb İrana hücum etməkdəki məqsədləri nə idi? Siz bu səkkiz ildə həmişə şahidi oldunuz ki, silah cəhətdən, təbliğat cəhətdən, o cümlədən də siyasi baxımdan, o dövrün Amerikası, SSRİ, dünyanın bütün irticaçı qüvvələri və dünyanın hər tərəfində onlara tabe olan digərləri bizlə mübarizə aparırdılar. Zalım və alçaq düşmən bizi gücləndirdi, bu nə üçün idi? Bunun səbəbi bu idi ki, 8 il hər iki tərəfi də məşğul

etsinlər. Sonra da, həmin sərhədlər beynəlxalq şəkildə qalsın, hadisələr bitsin və İslam hökuməti daha da güclənsin deyə belə edirdilər? Bu müharibədə onların niyyəti nə idi? Onlar İslam nizamını devirmək və ya onu günahlandırmaqdan başqa nəsə istəyirdilər? Onlar bizim sərhədlərimizi pozmağı və dövlətimizi parçalamağı bacarmadılar. Onlar da elə bu şeyləri istəyirdilər! Və ya istəyirdilər ki, İslam Respublikası İraqın arxasında dünya güclərinin dayandığını görüb, öz prinsiplərini tərk etsin. Dünyanın hegemon dövlətləri ilə razılaşsın. İsrailə qarşı bu qədər inadkar olmasın. Müsəlmanları və məzlumları bu qədər aşkar müdafi etməsin.

## • Müqəddəs Müdafiədə dünyanın hərbi gücləri üzərində qələbə

Müqəddəs Müdafiə dövrünün təcrübələrindən maksimum yararlanın. O zaman, həmin hava qüvvələri, ordu, və könüllü qoşunlar məhdud imkanlar, iqtisadi embarqo və ümumi

sanksiyalar ilə ön sıralarında Səddamın Bəasçi qüvvələri olan qoşunu ilə üzbəüz cəbhədə dayana bildilər. Amma onun sonradakı sıraları, şərqin və qərbin bütün hərbi qüvvələri idilər. Onlar texniki, elmi və kəşfiyyat yardımı edərək, təşkilat və idarəetmə işlərini həyata keçirirdilər. Belə bir geniş cəbhənin qarşısında gənclərimizin, ordumuzun, qoşunlarımızın, pilotlarımızın və digər silahlı qüvvələrimizin şücaəti ilə düşmənə qalib gələ bildik.

- Səkkiz illik müharibə bizi daha da gücləndirdi. Əgər səkkiz illik müharibə olmasaydı, millətin içərisində olan bu cəsur döyüşçülər, görkəmli şəxsiyyətlər də tanınmazdılar. Xalqın bu böyük və iman dolu hərəkatının meydana çıxması mümkün olmazdı.
- Bu səkkiz il, bir cəmiyyətin öz gəncliyindən gözləyə biləcəyi və iftixar ediləsi ən yüksək keyfiyyətlərin təzahürüdür. Yəni müqəddəs müdafiə bu eposun simvoludur. Bu müharibə, mənəviyyatın və imanın

rəmzidir. İdealizmin simvoludur. Fədakarlığın nümunəsidir. Dözümlülük, sabitlik və müqavimətin simvoludur. Ehtiyatlılığın və müdrikliyin təzahürüdür.

- Müharibə düşmən tərəfindən inqilabı yatırtmaq üçün başladılmışdı. Ancaq bu müharibə inqilabın gücünü və ruhunu daha da alovlandırdı.
- Bu müharibə müdafiə savaşı idi. Müdafiə savaşı hücum döyüşündən fərqlidir. Müdafiə savaşı, insanların sadiq olduqları ideallara bağlılığının ən önəmli təzahürüdür.
- Biz müharibədə çox əzizlərimizi itirdik. Çox sayda maddi və mənəvi zərərlər gördük. Amma bu millətin qəlbindəki çeşmə elə cuşə gəldi ki, onun bu gün və sabah üçün olan nemət və bərəkətləri hər şeydən daha artıq olacaqdır. Özünə güvən hissi, ləyaqət hissi, müstəqillik hissi, böyük bir milli özünə inam hissi, göstərdi ki, əgər bir millət Allaha iman düşüncəsi ətrafında toplaşarsa, mümkün olmayan möcüzələr bir-birinin ardınca mümkün olacaq.

- Səkkiz illik müharibə bu milləti güclü, cəsur və özünə güvənən bir millətə çevirdi. Bu millətin adını ucaltdı. Dünyanın bir çox müsəlman milləti bizim müharibəmiz və inanclarımız səbəbiylə əqidə və yol sahibi oldu.
- Səkkiz illik müdafiəmizin nemətlərindən biri də İranın elmi və texnoloji inkişafı, heç bir yardım olmadan ən dəqiq və misilsiz vasitələrin hazırlanması oldu. Bu isə, İran millətinin varlığının bir komponentinə çevrilmişdir.



## Nəticə

Bu gün özünün səkkiz illik müqəddəs müdafiəsini qürurla qeyd edən və öz qəhrəman övladları ilə fəxr edən İran İslam Respublikası regionda sülh, sabitlik və təhlükəsizliyin bünövrəsi olaraq imperialistlərin və düşmənlərin qarşısında müqavimət göstərir.

**Son**